# PANDEMİYA ŞƏRAİTİNDƏ QEYRİ NEFT-QAZ İXRACI: MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

Dr. Ramil HÜSEYN,
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzinin
icraçı direktorunun müavini

# Pandemiya şəraitində qeyri neft-qaz ixracı: mövcud vəziyyətin təhlili

Ramil HÜSEYN,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin
icraçı direktorunun müavini

## GİRİŞ

Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamının (5) icrası nəticəsində ölkədə iqtisadi fəallıq bərpa olunur. 2021-ci ilin yanvar-sentyabr aylarında ÜDM-in 4,8 faiz, qeyri neft-qaz ÜDM-in 6,2 faiz, qeyri-neft sektoru üzrə ixracı isə 40,9 faiz artması da bunun göstəricisidir(8).

Şübhəsiz ki, postpandemiya dövründə Azərbaycanda iqtisadi artımın dayanıqlığını təmin etmək baxımından qeyri neft-qaz sektoru üzrə artıma nail olmaq vacibdir. Çünki qarşıdakı müddətdə qlobal dəyər zəncirinə fəal qoşulma və qeyri-neft ixracının genişləndirilməsi məsələsi prioritetlərdən olacaqdır. Bu məqalədə 2021-ci ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft sektoru üzrə ixracın təhlili aparılmışdır.

## 2021-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRAC

Azərbaycanda qeyri-neft məhsullarının ixracının artırılmasına və stimullaşdırılmasına yönəlmiş tədbirlər öz nəticəsini verməkdədir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2021-cu ilin yanvar-sentyabr ayları ərzində Azərbaycan Respublikasının ixracı 14,6 milyard ABŞ dolları təşkil etmiş və 2020-ci ilin müvafiq dövrünə nisbətən 4 milyard ABŞ dolları və ya 38 faiz artmışdır(6). Xarici ticarət dövriyyəsində 6,3 milyard ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

2021-ci ilin yanvar-sentyabr aylarında qeyri-neft sektoru üzrə 1 milyard 809 milyon ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır(6). 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-cu ilin 9 ayında qeyri-neft sektoru üzrə ixrac 525 milyon ABŞ dolları və ya faktiki qiymətlərlə 41 faiz, real ifadədə 28,7 faiz artmışdır.

2021-ci ilin yanvar-sentyabr aylarında 571,2 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulu ixrac olunub. Kənd təsərrüfatı məhsulları ixracı 2020-ci ilin müvafiq dövrünə nəzərən dəyər ifadəsində 14 faiz artmışdır(10).

Qeyd edək ki, 2021-ci ilin 9 ayında qeyri-neft ixracının ümumi ixracda payı 12,4 faiz təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, 2020-ci ilin ilk 9 ayında analoji göstərici 12,1 faiz olmuşdur.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində meyvə-tərəvəz ixracı 398,9 milyon, plastmassa və onlardan hazırlanan məmulatların ixracı 307,7 milyon, pambıq lifi ixracı 151,5 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 114,9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 88,4 milyon, kimya sənayesi məhsullarının ixracı 125,2 milyon, pambıq ipliyi ixracı 40 milyon, elektrik enerjisinin ixracı 37,7 milyon, şəkər ixracı 26 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 10,6 milyon ABŞ dolları təşkil etmişdir(6).

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-sentyabr aylarında plastmassa və onlardan hazırlanan məmulatların ixracı 2,5 dəfə, şəkər ixracı 2,1 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 2,3 dəfə, pambıq ipliyinin ixracı 3,3 dəfə, pambıq lifinin ixracı 81 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 56 faiz, alkoqollu və alkoqolsuz içkilərin ixracı 16,4 faiz artmışdır. Təhlillərimiz göstərir ki, 2021-ci ilin yanvar-sentyabr aylarında qeyri neft-qaz məhsullarının ixracında pomidor (tomat), pambıq lifi və qızıl önə çıxmışdır(Cədvəl 1). Cari ilin 9 ayı ərzində bu məhsulların hər birinin ixracı 100 milyon ABŞ dollarından çox olmuşdur.

**Cədvəl 1.**
**2021-ci ilin yanvar-sentyabr aylarında qeyri neft-qaz məhsullarının ixracı, min ABŞ dolları (7)**

| Malların adı | Ölçü vahidi | İxrac | |
|---|---|---|---|
| | | miqdarı | məbləği |
| Qızıl, sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda | kq | 4412 | 158232 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | ton | 95768 | 149545 |
| Tomat, təzə və ya soyudulmuş | ton | 119138 | 128243 |
| İlkin formalı polipropilen | ton | 64384 | 86891 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | ton | 60665 | 71883 |
| Qabığı təmizlənmiş meşə fındığı | ton | 9367 | 55923 |
| Polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr | ton | 119410 | 51434 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | ton | 42626 | 50357 |
| Sidik cövhəri, o cümlədədn sulu məhlulda, tərkibində quru susuz məhsula hesablamada 45 kütlə %-dən çox azot olan gübrələr | ton | 200355 | 49931 |
| Metanol (metil spirti) | ton | 223727 | 48646 |

Ümumiyyətlə cari ilin 9 ayında mövsümi amillərin təsiri ilə kənd təsərrüfatı məhsulları ixracda önə çıxmışdır. Belə ki, qeyri-neft sektoru üzrə ixracı 22 faizini meyvə-tərəvəz, 8,3 faizini pambıq lifi təşkil etmişdir.

Digər tərəfdən 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ixrac olunan malların çeşidlərinin sayı artmışdır. Belə ki, 2020-ci ilin yanvar-sentyabr aylarında ixrac olunan malların çeşidləri 2722 ədəd olduğu halda 2021-ci ilin 9 ayında bu 3042 ədədə çatmışdır. Yəni ixrac olunan malların çeşidləri 12 faiz artmışdır(6).

Təhlil edilən müddətdə Azərbaycanın qeyri-neft ixracında əsas paya Rusiya Federasiyası sahib olmuşdur(Cədvəl 2).

**Cədvəl 2.**
**2021-ci ilin yanvar-sentyabr aylarında qeyri neft-qaz sektoru üzrə ölkələr, min ABŞ dolları(6)**

| Ölkələr | İxrac |
|---|---|
| Rusiya Federasiyası | 586508,4 |
| Türkiyə | 455039,9 |
| İsveçrə | 174032,7 |
| Gürcüstan | 120469,7 |
| Amerika Birləşmiş Ştatları | 54811,8 |
| Ukrayna | 36150,5 |
| Braziliya | 31476,3 |
| Çin | 27409,5 |
| Belçika | 26437,2 |
| Qazaxıstan | 26088,0 |

Cədvəldən də göründüyü kimi  qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (32,4 faiz), Türkiyəyə (25,2 faiz), İsveçrəyə (9,6 faiz), Gürcüstana (6,7 faiz), ABŞ-a (3 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

Şübhəsiz ki, qeyri-neft sektoru üzrə ixracın artımı ölkəmizin maliyyə dayanıqlılığına müsbət təsir etməklə yanaşı, yeni iş yerlərinin yaradılmasını, valyuta ehtiyatlarımızın stabilliyini təmin edir.

## POSTPANDEMİYA DÖVRÜNDƏ QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACIN ARTIRILMASI İMKANLARI

Koronavirus (COVID-19) pandemiyasının dünya miqyasında yaratdığı böhran 2020-ci ildə Azərbaycanın da ixracına mənfi yöndə təsir göstərdi. Belə ki, 2020-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 24201,1 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 13470,4 milyon dollarını və ya 55,7 faizini ölkədən ixrac olunmuş məhsulların, 10730,7 milyon dollarını (44,3 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 2739,7 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2019-cu illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 26,8 faiz, real ifadədə 21,9 faiz, o cümlədən idxal 36,0 faiz, ixrac isə 12,0 faiz azalmışdır. 2020-ci ildə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 5,3 faiz, real ifadədə isə 16,0 faiz azalaraq 1851,3 milyon dollar təşkil etmişdir(7). Amma 2021-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixrac 2,05 milyard ABŞ dolları təşkil etməklə 42 faizlik artıma səbəb olunmuşdur.  Bu həm də 2021-ci ilin sonuna kimi qeyri-neft ixracının 2,5 milyard ABŞ dollarına çatacağını proqnozlaşdırmağa əsas verir. Qeyd edək ki, 2022- il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə əsasən  2025-ci ilə kimi Azərbaycan ixracının dinamik olaraq artacağı gözlənilir. Burada müsbət tendensiya həm də ondan ibarətdir ki, 2025-ci ilə kimi ticarət dövriyyəsində müsbət saldonun 5 milyard ABŞ dollarından çox olacağı proqnozlaşdırılır.

**Cədvəl 3.**
**Azərbaycanın 2022-2025-ci illər üçün ticarət dövriyyəsi üzrə proqnozlar, milyon ABŞ dolları ilə (9)**

| Göstəricilər | 2022 | 2023 | 2024 | 2025 |
|---|---|---|---|---|
| İxrac | 15931 | 17094 | 17761 | 17827 |
| İdxal | 11733 | 11803 | 12056 | 12396 |
| Dövriyyə | 27664 | 28896 | 29818 | 30224 |
| Müsbət saldo | 4198 | 5291 | 5705 | 5431 |

Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının həcminin artırılması ilə bağlı proqnozlara gəlincə isə 2020-ci il ilə müqayisədə 2025-ci ildə bu sahədə iki dəfə artım proqnozlaşdırılır. Proqnoza əsasən 2025-ci ildə  qeyri neft-qaz ixracı 3,7 milyard ABŞ dollarına çatacaq və ümumi ixracda payı 20,7 faiz təşkil edəcəkdir. Məlumat üçün qeyd edək ki, 2020-ci ildə analoji göstərici 13,5 faiz olmuşdur.

Bizim hesablamamız isə göstərir ki, növbəti illərdə də qeyri-neft sektoru üzrə ixracda 2021-ci ilin nəticələri təkrarlanarsa, o zaman  Strateji Yol Xəritəsinin(4) bu sahədəki hədəflərə nail oluna bilər. Yəni 2025-ci ildə qeyri-neft sektoru üzrə ixrac adambaşına 450 ABŞ dollarına çatdırılması imkanları mövcuddur.

Digər tərəfdən növbəti onillikdə, yəni 2030-cu ilə kimi iqtisadiyyatın ikiqat artımının təmin edilməsi prioritet məsələ kimi qarşıda durur(3). "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qeyd edildiyi kimi iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır(1). Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından

biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir. Bu baxımdan da qeyri-neft sektoru üzrə ixracdakı artımın dayanıqlığını təmin etmək qarşıda duran aktual məsələdir. Hesablamalarımız da göstərir ki, Azərbaycanın qeyri-neft ixracını artırmaq potensialı mövcuddur. Qarşıdakı müddətdə bu potensialın reallaşması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi də zəruridir. Qeyd edək ki, 2019-cü il üzrə "The Observatory of Economic Complexity" hesabatına görə, Azərbaycan ixracın həcminə görə dünyada 144 ölkə arasında 74-ci yerdə qərarlaşmışdır(11). Amma bu indeksdən də aydın olar ki, Azərbaycan rəqabətqabiliyyətli əmtəəsi ilə "ixracın çoxşaxəliliyi" indeksinə görə dünya üzrə daha ön sıralarda yer almaq potensialı sahibdir.

Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə "Qeyri-neft ixracının uzunmüddətli strategiyası işlənməlidir və həm bu strategiya mövcud olan bazarlarla bağlı olmalıdır, perspektiv bazarlara çıxışla bağlı işlər aparılmalıdır", - deyərək bu sahədə fəaliyyətin dərinləşdirilməsi ilə bağlı konkret tapşırıqlar vermişdir(2). Bu tapşırığa uyun olaraq uzunmüddətli qeyri-neft ixracı strategiyasının layihəsi də hazırlanmışdır. Şübhəsiz ki, uzunmüddətli qeyri-neft ixracı strategiyası həm ixracın artmasına, həm də şaxələndirilməsinə töhfə verə bilər.

## NƏTİCƏ

Koronavirus pandemiyasının davam etdiyi bir şəraitdə, yəni 2021-ci ilin 10 ayı ərzində qeyri-neft sektoru üzrə ixracı isə 42 faiz artması yaxşı göstərici kimi qiymətəndirilə bilər. Burada onu da nəzərə alaq ki, 2020-ci ilin birinci rübündə koronavirus pandemiyası Azərbaycanın qeyri-neft ixracına ciddi təsir etməmişdir. Pandemiyanın əsas təsiri 2020-ci ilin ikinci rübündən hiss edilməyə başlamışdır. Bununla belə 2021-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixracda sürətli artımın qeydə alınması postpandemiya dövrü üçün də optimist proqnozlar verməyə əsas yaradır. Onun üçün də qeyri-neft ixracının artırılması istiqamətində görülən fəaliyyətin dərinləşməsi ilə yanaşı uzunmüddətli qeyri-neft ixracı strategiyasının təsdiqlənərək icra edilməsi də məqsədəuyğun olardı.

## ƏDƏBİYYAT

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir/
https://president.az/articles/504742.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə. Bakı: 13 yanvar 2020.
https://president.az/articles/356013.
3. Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 9 sentyabr 2020-ci il /
http://e-qanun.az/framework/459004.
4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir /
http://e-qanun.az/framework/342545.
5. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı tədbirlər plan. Bakı: 04 aprel 2020-ci il /

https://nk.gov.az/az/document/4367/
6. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. Hesabat dövrü: 01.01.2021 – 30.09.2021 /
https://customs.gov.az/modules/pdf/pdffolder/106/FILE_2D6841-0EFE0D-240811-9EA426-7BD97D-E87868.pdf7.
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın xarici ticarəti /
https://www.stat.gov.az/source/trade/8.
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Sosial, İqtisadi İnkişaf. Yanvar-Sentyabr 2021/
https://www.stat.gov.az/news/macroeconomy.php?page=19.
9. Azərbaycanın ticarət dövriyyəsi 2026-cı ilədək 30 mlrd. dolları keçəcək/
https://apa.az/az/xeber/maliyye/azerbaycanin-ticaret-dovriyyesinin-hecmi-2026-ci-iledek-30-mlrd-dollari-kececek-cedvel-669570?fbclid=IwAR3EYOCyheIfeHk5nXqKmZuljQtzfkAJHSMJdIDNsuub6g5DW8rThmPnshA
10. Kənd təsərrüfatı. Aylıq informasiya bülleteni. № 9. Sentyabr 2021. Aqrar Tədqiqatlar Mərkəzi /
https://atm.gov.az/pdf/bulleten-sentyabr-2021-tam-son171.pdf?v=67
11. Observatory of Economic Complexity (OEC).
https://oec.world